

## RƏHMAN BAYRAM

### *ANA*

"Alaram ayağım altına səni",
Hərdən acıqlanıb deyərdin mənə.
Bilməzdim cənnətdən bəhs etdiyini,
İndi o kəlmənə möhtacam, ana.

Bəşər pişvazıma çıxsa da sənsiz,
Şöhrətim zirvəyə qalxsa da sənsiz,
Qarnım bu dünyada toxsa da sənsiz,
Təkcə pak ruhuna mən acam, ana.

Rəhmanam, səcdənə əyilən qulam,
Bir dəli sevdadan qaçan ağılam,
Ayağın altında torpaqğam, yolam,
Başında qeyrətdən bir tacam, ana.

### *ÇÖRƏK*

Çörəyi müqəddəs sayıb babalar,
Öpüb, göz üstünə qoyub babalar,
"Vallah", "çörək haqqı" deyib babalar,
Çörək and yeridi, ocaqdı, qardaş.

Çörək verənlərə ulu deyiblər,
Allahın sevimli qulu deyiblər,
Ürəyi şəfqətlə dolu deyiblər,
İnsanlıq bəşərə mayaqdı, qardaş.

Çörəkli kişilər sözünü tutar,
Haqqın dərgahına üzünü tutar,
Nankorların çörək gözünü tutar,
Çörək göz nurudu, çıraqdı, qardaş.

Həmişə qızıldan qiymətli olub,
Hər şeydən dəyərli, hörmətli olub.
Yavan çörək yeyib, qeyrətli olub,
Kasıba yavan da qaymaqdı, qardaş.

Çörək süfrələrdə sultandı, şahdı,
Onsuz qalan ocaq amandı, ahdı,
Çörəyi tapdamaq, vallah, günahdı,
Qanmayan, imandan uzaqdı, qardaş.

Bir acı doyursan allah eşqinə,
"Çörəyin bol olsun" deməzmi sənə?
Tanrı əvəzini verməzmi yenə?
Çörək həm duadı, həm haqqdı, qardaş.

Ona xor baxanlar xoşbəxt olammaz,
Sürünər, dilənər, yaxşı dolanmaz,
Könlündə mərhəmət odu qalanmaz,
Çörək imtahandı, sınaqdı, qardaş.

"Çörək bol olarsa, basılmaz Vətən",
Düşmən qarşısında sarsılmaz Vətən,
Namərd ağacından asılmaz Vətən,
Dar gündə silahdı, yaraqdı, qardaş.

Rəhmanam, Vətənə, yurda bağlıyam,
Qışda aranlıyam, yayda dağlıyam,
Köküm atəşpərəst,odlar oğluyam,
Çörək el-obadı, oymaqdı, qardaş.

## VALLAH

Həyat yalan olar, pis ola bilməz,
Pis olan insanın özüdü, vallah.
Göyə ucaldan da, gözdən salan da,
İnsanın əməli, sözüdü, vallah.

İllər ötüşsə də dəyişməz qalan,
Kədərdən ağlayıb, fərəhdən dolan,
Qeysi Məcnun edib çöllərə salan,
Leylinin baxışı, gözüdü, vallah.

Rəhmanam, qanmaza həyat qandıran,
Zalıma, haqsıza haqqı andıran,
Bəzən dostları da yaxıb yandıran,
Deyilən hər sözün düzüdü, vallah.

## SEVƏN ÜRƏKLƏR

Ağıldan güc almır sevən ürəklər,
Həssas duyğuların köləsi olur.
Hopur varlığına sevdanın nuru,
Gözündə məhəbbət şöləsi olur.

Ucalır göylərə arzularıyla,
Mat qoyur dünyanı etibarıyla,
Yüklənir sevginin intizarıyla,
Çiyində həsrətin şələsi olur.

Titrətməz Rəhmanı ötəri hisslər,
Söndürməz eşqini dumanlar, sislər.
Bəşəri sevgiylə yaşayan kəslər,
Allahın sevimli bəndəsi olur.

## DƏRD

Niyə dərdsiz insan yoxdu dünyada?
Allah dərd verməsin, amandı, bacım.
Dərd də cavanlaşıb, qəm də, azar da,
Vaxtsız gələn kədər yamandı, bacım.

Dərd var, zərbəsindən zaman ağlayır,
Dərd var, acı söz tək sinə dağlayır,
Dərd var, insanları zülmə bağlayır,
Dərd var ki, sonsuz bir ümmandı, bacım.

Adam var, dərd-qəmi əridər dağı,
Övlad acısının sağalmaz dağı,
Adam var, göz yaşı bir dağ bulağı,
Adam var, yanıqlı kamandı, bacım.

Hippokrat andını içdiyi andan,
Xalqının dərdinə yanıb hər zaman,
Öz dərdini çəkmək deyildir asan,
El dərdinə qalan loğmandı, bacım.

Düşünmə ki, Rəhman başqa aləmdi,
Bir gözü gülürsə, bir gözü nəmdi,
Vətənsiz bu dünya bir cəhənnəmdi,
Könlüm Qarabağsız talandı, bacım.

## BİLMİRƏM

Bir sevdanın, bir acının rəsmini,
Çəkmək olmur, görən nədən, bilmirəm.
Cizgiləri xəfif qonar üzünə,
Sarsıdar varlığı, nədən, bilmirəm.

Sevən qəlblər bir-birinə tuş olar,
Eşq badəsin içənlər bihuş olar,
Məhəbbətin xəstəliyi xoş olar,
Çarəsi müşgüldü, nədən, bilmirəm.

Sevgi təlatümdü, çağlar dərindən,
Səssiz gələr, ruh oynadar yerindən,
Vüsalı naz edib yan ötər məndən,
Hicranı dost olar, nədən, bilmirəm.

Rəhman, halalı tut, harama getmə,
Dürüst ol, riyalar içində itmə,
Yüz yaxşılıq elə, bir dəfə etmə,
Düşərsən nəzərdən, nədən, bilmirəm.

## SEVGİ

Sevgi vaxtsız gələn qonağa bənzər,
Gələndə xəbərsiz, qəflətən gələr.
Hicranı köz kimi yandırar səni,
Vüsalı cənnət tək üzünə gülər.

Cavana, ahıla, yaşa da baxmaz,
Ağarmış tellərə, başa da baxmaz,
Ağıla, zəkaya, huşa da baxmaz,
Gəlişi haçandı? Yaradan bilər.

Rəhman, eşq dəryadı, üzdürər səni,
Məcnun tək çöllərdə gəzdirər səni,
Dərdi əzab verər, bezdirər səni,
Sevinci qəlb oxşar, ruhu təzələr.